# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat MƏRUZƏSİ

(Əvvəli 5-ci səhifədə).

Turizm və otelçilik üzrə peşə tədris mərkəzini isə 160 şagird bitirərək istehsalata göndərilmişdir. Onların 45 nəfəri ümumi orta təhsil bazasından, 115 nəfəri isə tam orta təhsil bazasındandır. Məzunlar aşpaz, turizm agenti, əməliyyatçı mühasib, kompüter operatoru, ofisiant, barmen, bufetçi, qənnadıçı, şirniyyatçı peşələrinə yiyələnmişlər.

2015-2016-ci dərs ilinin şagird qəbulu planına əsasən tədris mərkəzinə 120 nəfər dövlət hesabına, 23 nəfər isə ödənişli əsaslarla qəbul olunmuşdur.

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi tərəfindən ötən dövr ərzində sağlamlıq imkanları məhdud olan uşaqlar aktiv terapiya məşğələlərinə cəlb olunmuş, ailələri ilə psixoloji söhbətlər aparılmış, zehni geriliyi olan imkansız ailələrin uşaqlarına icma yardımı göstərilmişdir.

Mərkəzdə cari ilin 9 ayı ərzində "Erkən nikahların qarşısının alınması", "Narkomaniyanın və alkoqolun fəsadları", "Uşaq hüquqları", "Məişət zorakılığı və qadın hüquqları", "İnsan hüquqları", "Uşaqlarda xəstəliklərin aşkar olunması və erkən müdaxilə", "Sağlam ətraf mühit və sağlam həyat tərzi" və digər mövzularda 13 tədbir keçirilmiş və bu tədbirlərdə 1946 nəfər iştirak etmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

Ölkəmizdə son illər əhəmiyyətli dərəcədə müşahidə edilən inkişaf 2015ci ilin 9 ayı ərzində aqrar sahədə də davam etmişdir. Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Sərəncamı bu sahənin inkişafına xüsusi stimul verir. Sərəncamın icrası ilə əlaqədar olaraq rayonda torpaq mülkiyyətçilərinə dövlət büdcəsinin vəsaiti hesabına 2014-cü ilin sonunda 498551 manat yardım hesablanmış və həmin vəsait bu ilin I rübündə plastik kartlar vasitəsilə sahiblərinə çatdırılmışdır. Eləcə də komissiya tərəfindən cari ilin iyun ayında rayonun 1729 nəfər torpaq sahibkarına əkin sahələrinin becərilməsinə görə 1103442 manat yardım hesablanaraq, oktyabr ayında plastik kartlar vasitəsilə ödənilmişdir.

Rayonun iqtisadiyyatının əsasını təşkil edən taxılçılığın inkişafı ilə bağlı 2015-ci ilin məhsulu üçün 21300 hektar sahədə payızlıq dənli bitkilər əkilmişdir ki, onun da 14015 hektarı buğda, 7285 hektarı isə arpa sahələri olmuşdur. Bu il həmin taxıl sahələrindən 66097 ton məhsul istehsal edilərək, hər hektardan orta hesabla 31 sentner məhsul götürülmüşdür.

Torpaq sahibləri mövsümdə 1159 hektar kartof , 2097 hektar tərəvəz əkmiş, həmin sahələrdən 13908 ton kartof, 2097 ton tərəvəz məhsulu istehsal etmişlər.

Rayonda son illər kənd təsərrüfatı bitkilərinin əkini istiqamətində də xeyli dəyişikliklər aparılmış, inkişaf edən heyvandarlıq sahəsinin yemlərə artan tələbatının ödənməsi məqsədilə taxıl sahələri 1000 hektara qədər azaldılmışdır. Əvəzində həmin sahələrə yem bitkiləri əkilmişdir. Eləcə də digər ərzaq bitkilərinin əkini artırılmışdır.

Yüksək məhsuldarığa təsir edən amillərdən biri də torpaqların münbitliyinin qabaqcadan öyrənilməsi, gübrələrə və dərman pereparatlarına olan tələbatın tam ödənilməsidir. 9 ay ərzində rayonda mövcud olan əkin sahələrində torpağın münbitliyini öyrənmək məqsədilə 6852 ədəd torpaq nümunəsi və 6025 məhsul nümunələri götürülərək laboratoriyada yoxlanılmış və nəticələri barədə torpaq mülkiyyətçilərinə məlumat verilmişdir. Əkinçilər güzəştli şərtlərlə gübrə və dərman preparatları ilə təmin olunmuşlar. Sahələrdə ziyanvericilərə və alaq otlarına qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi məqsədilə 690 hektar sahədə ziyanvericilərə, 4764 hektar sahədə isə alaq otlarına qarşı dərmanlanma işləri aparılmışdır.

Rayonda meyvəçiliyin və üzümçülüyün inkişaf etdirilməsi də diqqətdə saxlanılır. Hazırda rayonda 6854 hektar bağ sahələri, 458 hektar üzüm plantasiyaları mövcuddur.

Ötən dövr ərzində Dövlət Meşə Fondu torpaqlarında 30,5 hektar meşə salınmışdır ki, bunun da 8 hektarı az qiymətli və aşağı məhsuldar meşələrin rekonstruksiyası hesabına aparılmışdır.

Rayonumuzda kənd təsərrüfatı işlərinin həyata keçirilməsi üçün kifayət qədər maşın və mexanizmlər alınaraq fəaliyyət göstərən 4 aqroservisdə cəmlənmişdir. Bundan başqa rayonda 410 fiziki şəxsdə müxtəlif markalı kənd təsərrüfatı texnikaları vardır. Bütövlükdə rayon üzrə 80 ədəd taxılyığan kombayn, 53 ədəd tırtıllı, 444 ədəd təkərli traktor, 29 ədəd buldozer, 38 ədəd ekskvator və s. kənd təsərrüfatı texnikaları mövcuddur. Kənd təsərrüfatı texnikası parkı daim təzələnir.

Görülən işlərin nəticəsində heyvandarlıq sahəsində də əhəmiyyətli dirçəliş hiss edilir. Hazırda iri buynuzlu mal-qaranın sayı 48675 baş, qoyun-keçilər 218800 baş, donuzların sayı 1046 başdır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə heyvandarlıq məhsulları istehsalı da xeyli artmışdır. Belə ki, ət istehsalı 4170 tona, süd istehsalı 28549 tona, yumurta istehsalı 8248 min ədədə, yun istehsalı isə 462 tona çatdırılmışdır.

Rayonda mal-qaranın damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması üçün 6 süni mayalama məntəqəsi fəaliyyət göstərir. 9 ay ərzində 3005 baş inək və düyələrdə süni mayalama aparılmış və süni mayalanmış heyvanlardan 1996 baş bala alınmışdır.

Heyvanların yoluxucu xəstəliklərə tutulmaması üçün vaxtaşırı lazımi müayinə və profilaktika işləri aparılır. Hazırda rayonda epizootik durum sabitdir.

Rayon balıqyetişdirmə zavodunda ötən dövr ərzində 52 min sağlam balıq körpəsi yetişdirilmişdir. Hazırda onların inkişaf etdirilməsi və bəslənilməsi istiqamətində işlər görülür.

Kənd əməkçiləri tərəfindən istehsal edilmiş məhsulların satışının təşkili istiqamətində də müvafiq tədbirlər həyata keçirilir. İstehsalçılar Bakı şəhərindəki kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında öz məhsullarını satırlar. Yarmarkalarda indiyədək 27 ton tumlu, 29,5 ton qərzəkli meyvələr və 2 ton müxtəlif tərəvəz məhsulu satılmışdır.

**Hörmətli toplantı iştirakçıları!**

2015-ci ilin ötən dövrü ərzində müasir informasiya texnologiyalarına istinad olunmaqla, vətəndaşların qəbulu, onları narahat edən məsələlərin həlli istiqamətində də xeyli işlər görülmüşdür. 9 ay ərzində rayon icra hakimiyyətinə 581 ərizə daxil olmuşdur. Ərizələrin 185-i Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, 31-i Milli Məclisdən, 13-ü Nazirlər Kabinetindən, 50-si mərkəzi icra hakimiyyəti orqanlarından, 302-si isə vətəndaşlardan daxil olmuşdur.

Ərizələr əsasən fərdi yaşayış evlərinin tikintisinə dair icazənin verilməsi, təbii fəlakət nəticəsində dəymiş ziyanın aradan qaldırılması, ailələrin mənzillə təmin edilməsi, xəstələrin müalicəyə göndərilməsi, birdəfəlik maddi yardımların verilməsi, işaxtaranların işlə təmin olunması mövzularında yazılmışdır.

Daxil olan ərizələr ətraflı araşdırılaraq hər birinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada cavab verilmişdir. Görülmüş işlərin nəticəsidir ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2015-ci ilin doqquz ayında daxil olan ərizələrinin sayı 78 ədəd azalmışdır.

Eləcə də 2015-ci ilin ötən dövrü ərzində 630 nəfər vətəndaş rayon icra hakimiyyəti başçısının qəbulunda iştitak etmişdir. Bir qayda olaraq vətəndaşların müraciətləri ilə bağlı cavabdeh şəxslər tərəfindən lazımi tədbirlər görülmüş, onların haqlı tələblərinə qanunamüvafiq qaydada baxılmışdır.

İlin əvvəlindən rayon icra hakimiyyəti başçısının 35 səyyar görüş-qəbulu keçirilmişdir. Qəbullarda 4328 nəfər iştirak etmiş, onlardan 281 nəfər müxtəlif təkliflər irəli sürmüşlər. Müraciətlərin 251-i müsbət həll edilmiş, 16-sı ilə bağlı müvafiq izahat verilmiş, 14 məsələnin həlli isə respublikanın digər aidiyyəti təşkilatları tərəfindən icra edilməli olduğuna görə həmin müraciətlərlə əlaqədar aidiyyəti üzrə təkliflər göndərilmişdir. Bunlar əsasən yaşayış məntəqələrinə qaz xəttinin çəkilməsi, elektrik dirəklərinin dəyişdirilməsi, yolların asfaltlaşdırılması, yeni məktəb binalrının, səhiyyə, mədəni-maarif ocaqlarının, körpülərin tikintisi, artezian quyularının qazılması və dağ çaylarında sahilbərkitmə işlərinin aparılması ilə bağlı olmuşdur.

**Hörmətli toplantı iştirakçıları!**

Nazirlər Kabinetinin iclasındakı yekun nitqində Prezident İlham Əliyev bildirmişdir ki, qlobal rəqabətlilik qabiliyyətinə görə Davos İqtisadi Forumu ölkəmizi 40-cı yerdə qərarlaşdırmışdır. Ölkə başçısı həmçinin, Azərbaycanın MDB-də birinci yerdə olduğuna, beynəlxalq reytinq agentlikləri tərəfindən ölkəmizin reytinqlərinin yüksəldildiyinə də diqqət çəkmişdir. Ölkədə maliyyə intizamının gücləndirilməsinin, izafi xərclərə yol verilməməsinin vacibliyini deyən dövlətimizin başçısı bildirmişdir ki, prioritet təşkil etməyən layihələrə vəsaitin ayrılması dayandırılmalı, büdcə xərclərinin strukturuna yenidən baxılmalı və büdcə vəsaiti qənaətlə işlədilməlidir. Bundan əlavə, sahibkarlar vergiləri vaxtında ödəməli, onların qarşısında əsassız ödəmələrlə bağlı tələb qoyulmamalıdır. Korrupsiya ilə mübarizə hallarının daha da gücləndirilməsinin, bu sahədə sistem xarakterli islahatların davam etdirilməsinin, "ASAN" xidmətin fəaliyyətinin genişləndirilməsinin zəruri olduğunu deyən cənab İlham Əliyev korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə ictimai nəzarətin də gücləndirilməsinin əhəmiyyətindən danışmışdır. Dövlətimizin başçısı ölkədə dayanıqlı tərəqqinin təmin olunması üçün bundan sonra da sahibkarlığın inkişafının diqqət mərkəzində saxlanılmalı olduğunu, xarici sərmayələrin daha çox qeyri-neft sektoruna istiqamətləndirilməsini, eləcə də biznes mühitinin yaxşılaşdırılmasını, yoxlamaların tənzimləmə mexanizmlərinin hazırlanmasını, yoxlamaların və lisenziyaların sayının kəskin şəkildə aşağı salınmasını tapşırmışdır.

Cənab İlham Əliyev kənd təsərrüfatının və sənayenin inkişafı, meliorativ tədbirlərin görülməsi, yeni əkin sahələrinin yaradılması, bundan əlavə, dərman bazarında vəziyyətə nəzarətin daha da gücləndirilməsi, metronun yeni stansiyalarının tikintisinin davam etdirilməsinin də vacibliyini diqqətə çatdırmışdır. Birinci Avropa Oyunlarının ölkəmizə marağı daha da artırdığını, turizm sektorunun inkişafına təkan verdiyini deyən dövlətimizin başçısı gələn illərdə keçiriləcək idman tədbirlərinin də bu baxımdan əhəmiyyətli olacağını bildirmişdir. Cənab Prezident "Cənub" qaz dəhlizinin tikintisi ilə bağlı tədbirlərin vaxtında həyata keçirilməsi istiqamətində tapşırıqlar vermiş, ilin sonuna qədər nəzərdə tutulan bütün tədbirlərin uğurla reallaşacağına əminliyini ifadə etmişdir.

**Hörmətli yığıncaq içtirakçıları!**

2015-ci ilin 9 ayı ərzində rayonumuzda görülən işlər və bu işlərin yerinə yetirilməsi istiqamətində rayon icra hakimiyyətinin, digər idarə, müəssisə və təşkilatların fəaliyyəti barədə Sizə qısa məlumat verdim.

Əldə edilən uğurlar bizi qarşımızda duran məsuliyyətli vəzifələrin daha inamla həyata keçirilməsinə ruhlandırır. Əminliklə bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti əlamətdar və tarixi hadisələrlə zəngin olan 2015-ci ili daha böyük nailiyyətlərlə başa çatdırmaq üçün fəaliyyətini genişləndirəcək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrini, eyni zamanda qanunvericiliklə üzərinə düşən vəzifələrin yerinə yetirilməsinin təmin edilməsi ilə bağlı lazım gələn bütün tədbirləri həyata keçirəcəkdir.